# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏ

**Bayramova L.Ə., Əmirquliyeva A.E.**

*Bakı Dövlət Universiteti*
*atuc.eva@gmail.com*

Enerji mənbələrinə daim artan tələbat, məhdud karbohidrogen ehtiyatları və ənənəvi enerji istehsalının yaratdığı ekoloji problemlər alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni zəruri etmişdir.

Azərbaycanın bir çox bölgəsi, o cümlədən işğaldan azad edilmiş ərazilər günəş enerjisi, külək enerjisi və geotermal enerji mənbələrdən istifadə üçün böyük perspektivlərə malikdir. Külək enerjisi ekoloji etibarlılığı və tükənməz mövcudluğu səbəbindən günəş, hidro, geotermal və biokütlə üzərində üstünlük verilən enerji mənbəyidir. Hesablamalar göstərir ki, Azərbaycan Respublikası coğrafi mövqeyi, təbii potensialı və iqtisadi infrastrukturuna görə illik 1500 MVt texniki külək enerjisi gücünə malikdir. Bu ehtiyat təxminən 2,4 milyard kVt/saat elektrik enerjisinə ekvivalentdir; bu, 1 milyon tona qədər standart yanacağa qənaət, ozon qatını dağıdan karbon dioksid və böyük həcmdə tullantıların atılmasının qarşısının alınması deməkdir.

Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. "Globalwindatlas" platformasının məlumatlarına əsasən, Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti 10 m/s-yə çatır. Qarabağın orta dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 MVt kimi qiymətləndirilir. Hazırda müşahidə stansiyalarının quraşdırılması yolu ilə dəqiq potensialın hesablanması həyata keçirilir.

Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsinin Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdədir. Bu barədə "APA-Economics"ə Azərbaycan Energetika Nazirliyindən bildirilmişdir. Məlumata görə, burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1,6-1,7 min kVt-saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3-4 min MVt-dır.

Energetika Nazirliyinin təqribi qiymətləndirmələrinə əsasən, Qarabağ və ətraf regionlarda ümumilikdə 4000 MVt-dan çox günəş, 500 MVt isə külək enerjisi potensialı var. Azərbaycanın yerli su ehtiyatlarının 25%-i, yəni ildə təqribən 2 milyard 560 milyon kubmetr su ehtiyatları bu ərazilərdə formalaşır.

Bütün bunlarla yanaşı, Kəlbəcər rayonu ərazisində 3093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su ehtiyatları mövcuddur. Alternativ enerji Qarabağ və ətraf regionlarda yeni iş imkanları, texnoloji yeniliklər və iqtisadi dəyər yaratmaq üçün yeni imkanlar üçün katalizator rolunu təmin edəcək.

Nəticədə, enerji daşıyıcılarının optimal qarışığını müəyyənləşdirmək,

müvafiq siyasi və sosial-iqtisadi qərarlar qəbul etmək üçün elektrik enerjisi istehsalı, sənaye sahələri, yaşayış məntəqələri, ticarət obyektləri, kənd təsərrüfatı və nəqliyyat infrastrukturunda enerji tələbatı üçün ətraflı uzunmüddətli inkişaf planlarının həyata keçirilməsi məqsədə müvafiqdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən işğaldan azad olunmuş ərazilərdə kənd məskənlərinin "Ağıllı kənd" konsepsiyası əsasında qurulması həyata keçirilir.

"Ağıllı kənd" konsepsiyasının həyata keçirilməsinə Zəngilan rayonundan başlanmışdır. Regionun gələcəkdə "Yaşıl enerji" zonası olması xüsusi əhəmiyyət kəsb edir.